**UOT 327**

# TÜRKİYƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN STRUKTURU VƏ XARAKTERİ

**Mübariz GÖYÜŞLÜ***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 may 2023; çapa qəbul edilmişdir: 6 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 19th of May, 2023; accepted: 6th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *Türkiyə, media, qəzet, radio, televiziya, inkişaf mərhələləri*

## Giriş

Türkiyədə mətbuatın yaranması o qədər də uzun bir tarixi dövrü əhatə etmir. Dünyada mətbuatın yaranma tarixi ilə Türkiyə mətbuatının yaranma tarixini müqayisə etsək, görərik ki, qardaş dövlətdə media ənənəsi uzun zamana söykənmir. Belə ki, Türkiyədə türk dilində ilk qəzet 1832-ci ildə Sultan II Mahmudun dövründə çap olunmuş və "Təkvimi-vəkayi" adlanmışdır. Bu qəzet Almaniyada ilk qəzetin nəşrə başlamasından 222 il, Fransadan 200 il, Rusiyadan 129 il sonra başlamışdır. Qəzetin ilk sayı 8 səhifə mətn, ayrıca 2 səhifə də ön söz olaraq, həftədə bir dəfə çıxmışdır (3, s. 396-400). Lakin ötən müddətdə Türkiyə mətbuatı böyük bir inkişafa nail olmuşdur. Qətiyyətlə deyə bilərik ki, Türkiyə mediası Qərb KİV-nin keçdiyi tarixi yol qədər məsafə qət etmiş, müasir dövrdə peşəkar jurnalist ordusunun, ictimai rəyə təsir edə biləcək media quruluşlarının hesabına dünyada öncül yerə sahib olmuşdur.

Bu gün Türkiyədəki ənənəvi və onlayn media nəinki ölkə daxilində, eyni zamanda qlobal miqyasda da çox ciddi təsir mexanizmlərinə malikdir. Lakin Türkiyədə media heç də bir istiqamətli, bir vektorlu, yekcins deyildir. Bu sahədə ən müxtəlif ideologiyaların təsiri altında olan, maddi-texniki imkanları bir-birindən fərqlənən, kifayət qədər tarixə malik olan, eyni zamanda yeni yaradılan media quruluşlarına da rast gəlmək mümkündür.

İnanılmaz bir inkişaf yolu keçən Türkiyə mediası bu nailiyyətlərə son bir neçə onillik ərzində nail olmuşdur. Qardaş ölkədəki KİV-in inkişaf mərhələlərini bir neçə yerə bölmək mümkündür.

## 1. Türkiyədə Kütləvi İnformasiya Vasitələrinin müasir inkişaf mərhələləri

Türkiyədə medianın inkişafını üç əsas dövrə bölmək olar:

1. Ənənəvi ailə media şirkətləri – 1980-ci ilədək;
2. Holdinqlərə aid media şirkətləri – 1980-2002-ci ilədək (çarpaz media);
3. Dövlət nəzarətinin media şirkətləri üzərində güclənməsi – 2002-ci ildən bu günədək.

12 sentyabr 1980-ci il tarixli hərbi müdaxilə ilə sosial müxalifətin səsi susduruldu və

* *AMEA Mərkəzi Elmi Kitabxana*
*e-mail:* mubariz2011@hotmail.com

bu siyasiləşmə prosesi mediada əks olundu. 1980-ci ildən sonrakı dövrdə kapitalın ideoloji üstünlüyünün media vasitəsi ilə qorunması əhəmiyyət qazandı. Neoliberal baxışlar mediada gücləndi (11, s. 116). Bu dövrdə müxtəlif sektorlara sərmayə qoyan iş adamları, paralel şəkildə media sektoruna da sərmayə qoydular. Bu proses, çarpaz medianın meydana çıxmasına səbəb oldu.

2002-ci ilə qədər Türkiyə mediasında hakim olan Doğan, Çukurova, Uzan, Sabah, İhlas və Doğuş ən inkişaf etmiş media şirkətləri idi. 2003-cü ildən sonra baş verən dəyişikliklərlə birlikdə media sahibliyi quruluşu dəyişdi. Bu səbəbdən Uzan Qrupu, daha sonra ATV-Sabah qrupu Əmanətlərin Sığortalanması Fondu (TMSF – *Tasarruf Mevduatı Sigorta Fonu*) tərəfindən ələ keçirildi. 1984-cü ildən bəri Uzan Qrupun nəzarəti altında olan İmar Bank 2003-cü ildə, qrupun digər aktivləri isə 2004-cü ildə ələ keçirildi. Beləliklə, Türkiyədə TMSF ən böyük media holdinqi oldu. Digər tərəfdən, Türkiyənin ilk şifrəli kanalı Cine5 də TMSF-yə verildi (10, s. 31).

2000-ci illərdə mediada baş verən digər mühüm inkişaf, Bilgin Qrupunun media imkanlarının TMSF tərəfindən ələ keçirilməsi idi. Qrupun sahibi olduğu bankın xalqa olan borcları səbəbiylə ələ keçirilən Bilgin media qrupu, 2005-ci ildə Turgay Cinere məxsus Mərkəz Nəşriyyatına satıldı. Turgay Ciner və TMSF arasında 2005-ci ildə edilən razılaşma nəticəsində Merkez Yayıncılık, Sabah-ATV-ni və Dinç Bilginin sahibi olduğu kanalları və markaları 10 illik müddətlə cəmi 433 milyon dollara satın aldı. 2007-ci ildə TMSF Bilginin Ciner Qrupuna satılan media varlıqlarını ələ keçirdi. TMSF, Ciner ile Bilgin arasında daha əvvəl imzalanan gizli protokol səbəbiylə ələ keçirdiyi media varlıqları 5 dekabr 2007-ci il tarixdə Ahmet Çalıka məxsus olan Turkuvaz Qrupa 1,1 milyard dollara qiymətləndirildi (9, s. 369-371).

**2. Türkiyədə Kütləvi İnformasiya Vasitələrinin müasir vəziyyəti**

Media Sahibliyi İzlənməsi Layihəsinin (MOM) Sərhədsiz Reportyorlar ilə birlikdə hazırladığı IPS 2019-cu ilin may ayında Türkiyədə media sektorunda 2474 qəzet, 3650 jurnal, 899 radiostansiya və 108 televiziya kanalının olduğunu müəyyənləşdirdi. Maraqlıdır ki, araşdırma nəticəsində ölkənin ən böyük 40 mediasının, mediadan fərqli sahələrdə – sənaye və ticarətdə fəaliyyət göstərən şirkətlər tərəfindən idarə olunduğu bəlli olmuşdur (15).

2019-cu ilin MOM araşdırmalarına görə, Türkiyədə televiziya kanallarına baxılma səviyyəsi 73% təşkil edir. Xəbərləri televiziyadan təqib edənlər 84%-dir. Baxılan kanalların 165-i yerli, 19-u milli və 13-ü dövlət tərəfindən idarə olunan kanallardır. Türkiyə əhalisinin 65%-i 2016-cı il 15 iyul (temmuz) hərbi çevriliş cəhdini televiziya vasitəsilə öyrənmişdir. Bu hadisədən sonra 19 TV kanalı bağlanmışdır.

Rəqəmsal TV yayımındakı ən böyük şəbəkələr Digitürk və D-Smart-a məxsusdur. Digiturk, borc səbəbi ilə 2013-cü ildə Çukurova Qrupu tərəfindən satın alınmış və daha sonra Qətər mərkəzli beIN Media qrupuna satılmışdı. Digitürk, AK Partiya hökuməti ilə münasibətləri gərginləşdiyi üçün 2015-ci ildə Gülən qrupu ilə əlaqəli televiziya kanallarını platformasından çıxardı (14).

Türkiyə KİV-lərinin rəhbərləri arasında yerli sərmayədarlarla yanaşı, xarici sərmayədarlar da vardır. Qardaş Türkiyədə yerləşən "Doğan Yayın Holding"in sahibi Aydın Doğan ölkəsində çap olunan qəzetlərin toplam tirajından yüzdə qırx faiz pay sahibidir. Mübaliğəsiz demək mümkündür ki, Türkiyənin informasiya bazarı birmənalı olaraq bu korporasiyanın nəzarəti altındadır. Bu qrupa məxsus qəzetlər "Hürriyyət", "Milliyyət", "Radikal", "Posta", "Turkish Daily News" Türkiyənin ən çox satılan mətbuat orqanlarıdır.

Ölkənin aparıcı televiziya kanalları olan "Kanal D", "CNN Türk", "Star" adıçəkilən holdinqə məxsusdur. Qeyd etmək lazımdır ki, "Doğan Holding" "Star" kanalını 2005-ci ildə 306 milyon dollara alıb. (4, s. 54-55)

Türkiyənin ictimai-siyasi və sosial-mədəni həyatında mühüm rol oynayan KİV-ləri aşağıdakı kimi səciyyələndirmək olar:

1. *Yerli sərmayədarlara aid media qurumları*
2. *Xarici sərmayədarlara aid olan və ortaq olan media qurumları*
3. *Qadağan olunan media qurumları*
4. *Dövlətə aid olan media qurumları*

*1. Yerli sərmayədarlara aid media qurumları*

Türkiyədə böyük media qurumlarının rəhbərləri, əsasən Türkiyənin müxtəlif sektorlarına böyük sərmayələr qoyan və ölkənin iqtisadi gücünü təmsil edən şəxslərdir. 2020-ci il statistikasına əsasən onlarla bağlı bəzi məlumatları paylaşmaq istərdik.

Sahibi Aydın Doğan olan Doğan qrupu (NTV, Star televiziyaları, Kral radiosu və s.), sahibi Enver Ören olan İhlas qrupu (TGRT Haber TV, İhlas xəbər agentliyi) və s. media qrupları çox böyük təsir imkanlarına, maliyyəyə, gücə sahibdirlər.

Bu qruplar yalnız media sahəsində çalışmalar etmirlər. Onlar Türkiyənin digər sektorlarına da yatırım qoyub ciddi ticarət, biznes fəaliyyətləri ilə məşğul olurlar.

*2. Türkiyədə xarici sərmayədarlara aid olan və ortaq olan media qurumları*

Doğan Holdinqin digər ortağı Ted Turnerdir. Turner media nəhəngi Time Warner-in qurucusu və CNN-in Türkiyədəki ortağıdır. Time Warner dünyanın ən böyük media orqanlarından biridir. Lakin şirkət 2018-ci ildə öz hissələrini Demirören qrupuna satdı və Türkiyə KİV-dən geri çəkildi. (6**)**

Hazırda Türkiyə KİV-ləri arasında yer alan yeganə xarici media quruluşu News Corporation (ya da News Corp) hesab olunur. O, dünyanın ən böyük media qruplarından biridir. Başçısı yəhudi mənşəli olan və müsəlman düşmənçiliyi ilə seçilən Keith Rupert Murdoch (d. 11 mart 1931-ci il) hesab olunur. O, öz şirkətini ingilis və Amerikan mediasına doğru genişlətmiş və dünyanın ən əhəmiyyətli, zəngin media patronlarından biri olmuşdur. Dünyanın ən zənginləri siyahısında yer alan Rupert Murdoch, 2011-ci ildə sahibi olduğu News of the World-un yol açdığı "telequlaq skandalı" üzündən ingilis parlamentində ifadə vermək məcburiyyətində qalmış və uzun müddət İngiltərə gündəminin ilk sıralarını məşğul etmişdi. Skandaldan sonra 168 illik qəzeti bağlayan avstraliyalı media müdiri, News Corporation şirkətinin İngiltərədəki ayağı olan News International-ın idarəçiliyindən də istefa etmişdi. Türkiyənin Fox TV şirkəti də buna öz etirazını bildirmişdir (12).

FOX – "News Corporation" adlı şirkətin tabeliyində olan, Türkiyədə yayımlanan televiziya kanalıdır. TGRT kanalının bağlanmasından sonra həmin kanalın tezliyində 24 fevral 2007-ci il tarixində yayıma başlamışdır. "TGRT" İhlas Holdinqin tabeliyində olan "Huzur Radyo TV A.Ş." şirkətinə aid telekanal idi. 17 dekabr 2004-cü ildə İhlas Holdinq kanalın satıldığını açıqladı. Nəticədə, şirkətin 56.5%-i satılmış oldu. "TGRT" kanalını satın alan ABŞ-ın media şirkətlərindən biri "News Corporation"ın sahibi Keith Rupert Murdoch idi. Daha sonra "News Corporation" digər hissədarlar ilə də razılaşaraq bu şirkətin bütün hissələrini satın aldı. İhlas Holdinq "TGRT" kanalını satsa da, "TGRT Haber" və "TGRT Belgesel" kanallarını satmadı. "News Corporation" şirkəti bu işi Ahmet Ertegün vasitəsilə həll etdi. Ahmet Ertegünün "Atlantic Records" şirkəti ilə xatırlanan

şirkət 2007-ci ilin fevralından etibarən "FOX" adı ilə icarəyə götürülən, əvvəl "Ət və Balıq Qurumu"na aid olan binadan yayımlanır. "FOX Ana Haber"i həftə içi Nazlı Tolga təqdim etmişdi. 2 sentyabr 2013-cü ildən etibarən "FOX Ana Haber"i həftə içi Fatih Portakal, həftə sonu isə Gülbin Tosun təqdim edir (12).

"Telequlaq skandalı" ilə gülənçilərin adının hallanması, hətta sabiq Milli təhlükəsizlik naziri Eldar Mahmudov əməliyyatlarında müşahidə olunması, bunlar arasında müəyyən əlaqələrin olduğunu göstərir. Rupert Murdoch'ın Fetullah Gülənlə və PKK ilə əlaqəsi barədə türk KİV-də bir çox xəbərlər yayılıb (13).

Prezident İlham Əliyevin Brüssel və Münhen səfərlərinə, Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunmasına, Fox TV-nin ekranından bir neçə dəfə qərəzli münasibət göstərilmişdir. Fox TV-də Fatih Portakalın təqdim etdiyi ana xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin həyat yoldaşı Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunmasına qarşı sərgilədiyi münasibət Azərbaycanda böyük əks-səda oyandırdı. Azərbaycan KİV-də jurnalistin bu mövqeyinin qərəzli olduğu, Türkiyə-Azərbaycan əlaqələrinə zərər verdiyi şəklində xəbərlər yayıldı. Ölkədəki bəzi QHT-lər və millət vəkilləri buna tənqidi münasibət bildirdilər. Bununla bağlı olaraq 22 fevralda Azərbaycanda Fox TV-nin yayımı dayandırıldı (5).

F.Portakalın bu davranışı Azərbaycan-Türkiyə münasibətlərini pozmağa yönəlmişdi. Lakin bu cəhd alınmadı. Çünki Azərbaycanla Türkiyə arasındakı münasibətlər elə bir səviyyədədir ki, onu hansısa verilişlərlə pozmaq mümkün deyil. Bu münasibətlər haqqında Prezident İlham Əliyev demişdir: "Türkiyə-Azərbaycan əlaqələri indi ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır". (1)

15 temmuz (iyul) çevrilişindən sonra Türkiyənin siyasi və media həyatında bir çox dəyişikliklər baş verdi. Bunların ən başlıcası, Türkiyədə fetoçu qrupların media qurumları bağlandı və onlar tədricən dövlət strukturlarından təmizlənməyə başlandı. Azərbaycanda da fetoçu qruplarına aid olan bir neçə media qurumu bağlanmış və ya idarə heyəti dəyişdirilmişdir (Samanyolu TV, Zaman qəzeti, Xəzər TV, Xəzər FM, Azerbaycan Burç FM).

### *3. Qadağan olunan media qurumları*

Radio, televiziya və tələb olunan media xidmətlərinə nəzarət və tənzimləmədən məsul olan qurum Radio Televiziya Ali Şurasıdır (Radyo Televizyon Üst Kurulu - RTÜK). O, informasiya yayımı qanunlarının pozulması ilə əlaqədar müəyyən cəza və sanksiyalar tətbiq edə bilir. Türkiyədə 2016-cı il 15 temmuz (iyul) hadisələrindən sonra təyin olunan fövqəladə halda fetoçularla birbaşa və dolayı əlaqədə olan 28 televiziya, 34 radiostansiya, 140 mətbuat yayım təşkilatı, 30 nəşriyyat bağlandı, televiziya, radio və dövri nəşrlər də daxil olmaqla 520 jurnalist mühakimə olundu. FETÖ terror təşkilatına aid media şirkətlərinin hamısı bağlandı və onun işçiləri həbs edildi. (8)

Türkiyədə erməni və türk dilində "Agos" adlı mətbuat orqanı var. Bu mətbuat orqanında çalışanların əksəriyyəti Türkiyə vətəndaşı olan ermənilərdir. Orada mədəni və siyasi məqalələr geniş yer alır. Lakin bu mətbuat orqanı Azərbaycan-Türkiyə münasibətlərinə, Türkiyənin sosial-siyasi həyatına mənfi yöndən təsir göstərir. Çünki o da digər erməni media qurumları kimi erməniliyin ideologiyasına və beynəlxalq erməni diasporunun strateji məqsədlərinə xidmət edir.

*4. Dövlətə aid olan media qurumları*

Televiziya və radio yayımlarına Türkiyədə Radio və Televiziya Üst Qurumu (RTÜK) tərəfindən nəzarət edilir.

RTÜK mətbuat, informasiya və onların texnologiyası, mədəniyyət, din, təhsil, hüquq sahəsində təcrübəsi olan, ali təhsilli, beşi iqtidar partiyasının və partiyalarının, dördü müxalifət partiyalarının göstərəcəyi namizədlər arasından Türkiyə Böyük Millət Məclisi tərəfindən seçilən doqquz üzvdən ibarətdir. (3, s. 220)

Türkiyədə televiziya bazarı yerli informasiya məkanında təqribən 44% yer tutur. Baxılan kanalların 165-i yerli, 19-u milli və 13-ü dövlət tərəfindən idarə olunan kanallardır. 13 televiziya kanalı, 13 radiostansiyası, 2 onlayn xəbər saytı və üç jurnalı olan Türkiyə Radio və Televiziya Qurumu (TRT) 1972-ci ildə konstitusiya düzəlişlərindən sonra "bitərəf" şəkildə yayım edən ictimai dövlət kanalıdır. Bəzi müxalifət partiyaları TRT-nin seçkilərdə bitərəf mövqe nümayiş etdirmədiyini iddia edirlər (15).

Hökumətə qismən tənqidi yanaşma nümayiş etdirən media, nəhəng Doğan Media qrupudur. Onun 4 televiziya (ATV News, SHOW TV, Star TV, NTV), 7 qəzet (Habertürk, Milliyet, Sabah, Türkiye, Takvim, Yeni Şafak, Güneş), 4 radio (News Radio, Kral FM, NTV Radio, TGRT FM) və 4 veb saytı (sabah.com.tr, milliyet.com.tr, haberturk.com, gazetevatan.com) vardır. MOM hesabatlarına görə, hökumətə yaxın televiziya kanallarına baxanlar 45%, yazılı mətbuatı izləyənlər 52%, onlayn xəbər saytlarını oxuyanlar 73% təşkil edir (15).

Araşdırma apararaq media sahiblərinin siyasi əlaqələrini müəyyən etmək mümkündür. Doğuş Media və Doğan Media sahibləri və menecerləri arasındakı siyasi əlaqələrin gizli səs yazıları və ya onların dövlət məmurları arasında keçdiyi iddia edilən korrupsiya qalmaqalları ilə əlaqədar sızdırılan yazışmalarla ortaya çıxdığı iddia edilir. Bu qeydlər, qeyri-media fəaliyyətindən başqa hökumətlə heç bir əlaqəsi olmayan kimi görünən media qurumlarının, həqiqətdə dövlət məmurları arasında birbaşa söhbət və ya yazışmalar yolu ilə hökumət tərəfindən idarə olunduğunu ortaya çıxarır. Bununla bağlı olaraq hökumət Doğan Medya şirkətinə təzyiq göstərmək üçün milyardlarla avro cərimələr tətbiq etmişdi. Alman media nəhəngi Axel Springer ilə ortaqlığı olan qrupun başqa bir sektorda böyüməsinə icazə verilmir və lisenziya tələbləri Ankaradan geri qayıdırdı (7).

### 3. Türkiyədə dövlət təhlükəsizliyi və media

1980-ci illərdə başlayan kapitalın media yönümlü olması, mətbuatın bir neçə yerli və xarici sərmayədarın əlində cəmlənməsi ilə nəticələnmişdi. Həm yerli, həm də xarici sərmayədarların media qurumlarını satın almasının əsas məqsədi daha da zənginləşmək idi. Yerli sərmayədarlar media qurumlarını satın almaqla ölkədə siyasi proseslərə təsir və təzyiq etmək imkanı əldə edir və bu yolla iqtidarları öz iqtisadi mənafeyi istiqamətində yeni imkanlar yaratmağa vadar edirdilər. Xarici sərmayədarlar da eynilə, ölkədəki siyasi proseslərə müdaxilə etmək imkanlarını əldə edir, hökumətdən müəyyən iqtisadi dividentlər əldə etməyə çalışır, üstəlik, xarici ölkələrin və onların kəşfiyyat orqanlarının həmin ölkə daxilində fəaliyyətinə imkanlar yaradırdılar.

Bu gün dünya siyasətində hegemon güc qismində təmsil olunan müəyyən milli aktorlar özlərinin transmilli maraqlarını təmin etmək üçün müxtəlif vasitə və resurslara istinad edirlər. Bu sırada ən çox istifadə və istinad edilən vasitə isə transmilli media strukturlarıdır. Müasir dövrdə transmilli media strukturlarının fəaliyyət mexanizmi konkret güclərin maraqları əsasında qurulub və özündə dərin siyasi manipulyasiya metodlarını ehtiva etməkdədir (2, 50).

Türkiyədə 2002-ci ildən medianın həyatında yeni bir dövr başladı. Ərdoğan 2002-ci ildə hakimiyyətə gəldikdən sonra bu prosesi geri çevirdi. Baş nazir olana qədər onu dəstəkləyən bir neçə kiçik islamçı qəzet var idi. Buna görə əvvəlcə medianın mülkiyyət məsələsinə toxundu. Əsas media qruplarının müxtəlif metodlarla yaxın iş adamlarına ötürülməsini təmin etdi. Əvvəlki kimi iş adamları əvvəlcə media alıb sonra zənginləşmirdilər. Dövlət tenderləri ilə zənginləşən iş adamlarına media satın alma əmri verildi. Bu metodla edilən əl dəyişiklikləri sayəsində mətbuat böyük ölçüdə nəzarət altına aldı. Bu hadisə, müxalifət partiyaları tərəfindən demokratiyaya zidd hərəkət kimi dəyərləndirilsə də, reallıqda Türkiyənin dövlət təhlükəsizliyini təmin etmək üçün doğru və mühüm bir addım idi. Türkiyədə 2016-cı il 15 iyul hadisələri (hərbi çevriliş cəhdi) bunu bir daha təsdiq etdi. Əgər media dövlət nəzarətində olmasa idi Türkiyədə bu çevriliş cəhdinin qarşısını almaq mümkün ola bilməzdi. Bundan sonra da baş verən hadisələr bu istiqamətdə Türkiyənin, eləcə də Azərbaycanın atdığı addımların doğru olduğunu praktikada sübut etdi.

**Nəticə**

Türkiyədə medianın yaranması prosesi gec başlayıb. Dünya ölkələrində, xüsusən Avropa ölkələrində kitab çapı, qəzet çapı prosesləri Türkiyədən bir neçə əsr əvvəl başlayıb. Çox sonralar Osmanlı sultanının göstərişi ilə ölkədə mətbuatın yaranması prosesi gerçəkləşdirilib. Mətbuatın yaranmasının gecikməsi təbii ki, ölkənin inkişafına mənfi təsirlərini göstərib.

Lakin gec yaranmasına və gec inkişaf etməsinə baxmayaraq Türkiyədə mətbuat müəyyən müddətdən sonra inanılmaz bir yol qət edib bugünkü müasir duruma gəlib çatmışdır.

Türkiyədə medianın inkişafı ölkənin inkişafı ilə paralel şəkildə gedib. Uzun müddət aparıcı media qurumlarının müəyyən bir qisminin xarici şirkətlərin nəzarəti altında olması ölkənin ictimai-siyasi proseslərinə də mənfi təsir göstərib.

Türkiyədə AKP iqtidarının hakimiyyətə gəlməsindən sonra bu istiqamətdə durum dəyişib. Media nəzarətə götürülüb və onun fəaliyyəti dövlətə, dövlətçiliyə xidmətə yönləndirilib. Əvvəllər medianın vasitəsilə Türkiyədə hətta hakimiyyət böhranları yaradılırdısa, Rəcəb Tayyib Ərdoğanın media siyasəti nəticəsində bunlar aradan qalxmış oldu. Bütün bunlar, o cümlədən digər sahələrdə görülən işlər Türkiyənin inkişafında yeni mərhələ açmış oldu. Medianın güclü inkişafı isə təbii ki, dövlətin daha da güclənməsinə, onun xaricdə və daxildə nüfuzunun artmasına səbəb olmaqdadır. Artıq Türkiyə mediası nəinki ölkə miqyasında ictimai rəyə təsir edir, hətta ölkənin hüdudlarını da aşaraq beynəlxalq miqyasda rəy formalaşdırılmasında, Türkiyənin sürətli inkişafında yeni mərhələnin açılmasında aktiv rol oynayır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı (2017) (http://president.az/articles/22882 - giriş tarixi 23 fevral 2017)
2. Babaoğlu H. İnfoimperializm və media. Bakı: MSA, 2013, 192 s.
3. Vəliyev H. Xarici ölkələrin jurnalistikası tarixi. Bakı: Tuna, 2012, 640 s.
4. Zifəroğlu V. Media imperiyası. Bakı: Nurlan, 2012. 142 s.

**Türk dilində:**

5. Azerbaycan’da Fox TV yayını durduruldu! (12.05.2020) (https://www.sozcu.com.tr/ 2017/gundem/azerbaycanda-fox-tv-yayini-durduruldu-1695175/)
6. Doğan Yayın Holding (21.03.2022), (https://tr.wikipedia.org/wiki/Do%C4%9Fan_Yay%C4%B1n_Holding)
7. “Gizli tanıktan şok sözler: Cumhurbaşkanı Erdoğan'ı alıp...” (21.03.2022), (https://www.medyafaresi.com/haber/gizli-taniktan-flas-feto-itiraflari-megerse/794544)
8. Gümüş K. Dünden Bugüne FETÖ’nün Medya Düzeni (21.03.2022) (https:// kriterdergi.com /dosya-4-yilinda-15-temmuz/dunden-bugune-fetonun-medya-duzeni)
9. Kuyucu M. Türkiye’de Medya Ekonomisi. İstanbul: Esen Kitap, 2012, 685 s.
10. Özdurdu R. Medyada Sahiplik ve Yoğunlaşma, Oluşturduğu Sorunlar ve Şeffaflığın Sağlanması, Uzmanlık Tezi, Radyo ve Televizyon Üst Kurulu, Ankara, 2011.
11. Özsever A. Tekelci Medyada Örgütsüz Gazeteci. İstanbul: İmge Kitabevi Yayınları, 2004, 300 s.
12. Rupert Murdoch (21.03.2022) (https://en.wikipedia.org/wiki/Rupert_Murdoch)
13. Tescilli Islam Düşmanı Siyonist Murdochin Kirli Dosyası (23.03.2022) (https://www. fikriyat.com/gundem/2018/08/12/tescilli-islam-dusmani-siyonist-murdochin-kirli-dosyasi)
14. Türkiye’de Artık Medyanın da Tek “Patron”U Var (22.03.2022), (https://www.faz.net/aktuell/feuilleton/medien/tuerkiye-de-art-k-medyan-n-da-tek-patron-u-var-15508111.html)
15. Türkiye'de Medyayı Kim Kontrol Ediyor? (21.03.2022) (https://tr.euronews.com/ 2019/05/03/medya-sahipligi-turkiye-de-medyayi-kim-kontrol-ediyor)

***Резюме***

***Мубариз Геюшлу***

***Структура и характер турецких СМИ***

В статье анализируется состояние средств массовой информации Турецкой Республики, рассматривается их структура, характер и современные этапы развития. Развитие турецких СМИ делится на три основных периода. Анализ темы проводится в данных периодах. Роль ведущих холдингов Турции в захвате СМИ и управлении ими представлена различными статистическими показателями и сравнительным анализом. В статье анализируется состояние средств массовой информации в современной Турции – веб-сайтов, газет, телевидения и радио. Параллели и анализ подробно представлены. В статье также рассматривается внешнее влияние на медиахолдинги Турции, и попытки через них изменить политическую ситуацию в стране и происходящие на фоне этого в Азербайджане.

В статье анализируется захват иностранными державами ряда медийных структур, имеющих возможность серьезно влиять на общественное мнение в Турции. Проанализировано, что медиаструктуры, захваченные иностранными державами, не только наносили ущерб государственным интересам Турции, но и пытались испортить отношения с Азербайджаном. В статье акцентируется внимание на роли СМИ в общественно-политических процессах в период после 2002 г., то есть после прихода к власти Эрдогана. Понимая, что СМИ – великая сила, правительство ПСР(Партия справедливости и развития) предприняло ряд шагов, чтобы направить деятельность СМИ на развитие государства и защиту государственности. Было обеспечено, чтобы ведущие СМИ контролировались людьми, близкими к Эрдогану. Благодаря изменениям, внесенным с помощью этого метода, пресса была взята под контроль. Хотя это событие было расценено оппозиционными партиями как антидемократический акт, на самом деле это был правильный и важный шаг для обеспечения государственной безопасности Турции. События 15 июля 2016 года (попытка военного переворота)

в Турции еще раз подтвердили это. Если бы СМИ не находились под контролем государства, предотвратить эту попытку государственного переворота в Турции было бы невозможно.

В целом в статье дан подробный анализ состояния СМИ в Турции с 1980-х годов до современного периода.

***Ключевые слова***: *Турция, СМИ, газеты, радио, телевидение, этапы развития*

***Summary***

***Mubariz Goyushlu***

***Structure and character of the turkish media***

The article analyzes the situation with the mass media of the Republic of Turkey, examines their structure, character and modern stages of development. The development of the Turkish media is divided into three main periods, and in this context, the analysis is carried out. The role of the leading holdings in Turkey in capturing and directing the media is presented by various statistical indicators and comparative analysis. The article analyzes the state of the media in modern Turkey – websites, newspapers, television and radio. Parallels and analyzes are presented in detail. The article also analyzes the foreign influence of media holdings in Turkey, attempts to change the political situation in the country through them, and what happened in Azerbaijan in this context.

The article analyzes the seizure by foreign powers of a number of media structures that have the ability to seriously influence public opinion in Turkey. It is analyzed that the media structures captured by foreign powers not only harmed the state interests of Turkey, but also tried to spoil relations with Azerbaijan. The article focuses on the role of the media in the socio-political processes in the period after 2002, that is, after Erdogan came to power. Realizing that the media is a great force, the AKP government has taken a number of steps to direct the activities of the media to the development of the state and the protection of statehood. It was ensured that the mainstream media was controlled by people close to Erdogan. With the changes made with this method, the press was brought under control. Although this event was regarded by the opposition parties as an anti-democratic act, in fact it was the right and important step to ensure the state security of Turkey. The events of July 15, 2016 (an attempted military coup) in Turkey once again confirmed this. If the media were not under state control, it would have been impossible to prevent this coup attempt in Turkey.

In general, the article provides a detailed analysis of the state of the media in Turkey since the 1980 s and presents the current situation.

**Keywords:** *Turkey, media, newspapers, radio, television, development stages*

Redaksiya heyətinin üzvü fəl.ü.f.d., dos.Qaraməmmədli Yasin Alı oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.